# Azərbaycanın haqq savaşı xarici mətbuatda




"Amnesty International" Beynəlxalq hüquq müdafiə təşkilatı ilk dəfə olaraq etiraf edib ki, Ermənistan silahlı qüvvələri dünyanın bir çox ölkələrində qadağan olunmuş kasetli döyüş sursatlarından istifadə edir. AZƏRTAC xəbər verir ki, Rusiyanın "utro.ru" nəşrində dərc edilmiş material bu barədədir.

Nəşrdə göstərilir ki, "Amnesty International"-ın verdiyi məlumata görə oktyabrın sonlarında Azərbaycanın Bərdə şəhərində yaşayış məhəllələri atəşə tutularkən, Yerevan kasetli döyüş sursatlarından istifadə edib.

Hüquq müdafiəçiləri amerikanın "Vice News" nəşrində dərc olunmuş fotoşəkilləri təhlil edərək 300 mm çaplı yaylım atəşli "Smerç" reaktiv sistemindən atılmış bir neçə mərminin düşməsi faktını təsdiq ediblər. Məsələn, 9H235 qəlpəli döyüş elementlərinin fraqmentləri tapılıb. Amnesty vurğulayır ki, bu mərmilər Ermənistan silahlı qüvvələri tərəfindən tətbiq edilib.

"Amnesty International"-ın Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Mari Strazers bu atəşləri şərh edərək deyib: "Kasetli döyüş sursatları ilə mülki ərazilərə atəş açılması ağılsız və qəddar hərəkətdir, bu, saysız-hesabsız ölüm, yaralanma və əzab-əziyyətə gətirib çıxarır. Kasetli döyüş sursatları mahiyyət etibarilə seçimsiz təsir göstərən silahlardır və istənilən hallarda onlardan istifadə beynəlxalq humanitar hüquqa görə qadağandır".

Məqalədə qeyd edilir ki, Ermənistan silahlı qüvvələrinin seçimsiz təsir göstərən silahlardan istifadə etmək cəhdləri Bakıda müxtəlif səviyyələrdə dəfələrlə göstərilib. Məsələn, oktyabrın 10-da bildirilmişdi ki, Yerevan Dağlıq Qarabağda döyüş əməliyyatları zamanı kasetli döyüş sursatlarından və hətta içərisinə ağ fosfor doldurulmuş tüstülü mərmilərdən mülki obyektlərə qarşı istifadə edir. O vaxt Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməliyyatlar üzrə meneceri Elnur Qasımov bildirmişdi ki, oktyabrın 8-də Füzuli rayonunun Arayatlı kəndinin yaxınlığında içərisinə ağ fosfor doldurulmuş mərmi aşkar edilib. Yevlax, Goranboy və Ağcabədi rayonlarında isə kasetli bombaların fraqmentləri tapılıb.

Məqalədə deyilir: "Yerevanın seçimsiz təsir göstərən silahdan Azərbaycan şəhərlərinin mülki əhalisinə qarşı istifadə etmək cəhdləri onun münaqişəni davam etdirmək üçün resurslarının tükənməsinə dəlalət edə bilər. Hərçənd, Ermənistan rəhbərliyinin bundan sonra hər hansı beynəlxalq yardım akkumulyasiya edə biləcəyi şübhə doğurur. Konvensiyanı imzalamış və ya özlərinin silah arsenalında müharibə aparmağın müasir vasitələri olan xarici vasitəçilərlə söhbət zamanı köhnəlmiş kasetli döyüş sursatlarının tətbiq olunmasını izah etmək çətindir".

❖ ❖ ❖




Özbəkistanın "fikr.uz" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsini dərc edib. AZƏRTAC xəbər verir ki, "Dağlıq Qarabağ resurslar məsələsi deyil, bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir" sərlövhəsi ilə verilən yazı rus dilində yayımlanıb.

Jurnalistin nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? sualına Azərbaycan Prezidenti belə cavab verib: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

"İnterpress.uz" saytının Bərdə və digər şəhər və kəndlərimizin atəşə tutulması ilə bağlı məqaləsində bildirilir ki, "Amnesty International" Ermənistanın Azərbaycanın Bərdə şəhərində kaset bombalarından istifadə olunduğunu təsdiq edib. Bildirilir ki, "Smerç" kaset bombası adamların sıx toplaşdığı əraziyə düşüb və nəticədə 21 adam həlak olub, çoxlu yaralananlar və dağıntılar var.

Məqalədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi haqqında da məlumat verilir.

Bundan əlavə, "tnews.uz" portalı "Vladimir Putin Azərbaycanı dəstəklədi" sərlövhəli məqalə ilə çıxış edib.

Yazıda deyilir: "Rusiya Prezidenti Vladimir Putin "VTB Kapitala" "Rossiya zovyot!" İnvestisiya Forumunun iclasında bildirib ki, Dağlıq Qarabağ özü və Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı yeddi rayonu Ermənistanın nəzarəti altına keçib. Bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır.

"İnterpress.uz" portalı digər məqaləsində yazır ki, tanınmış ABŞ eksperti Piter Teys erməni terrorizmini dayandırmağa çağırıb. O deyib ki, Ermənistan beynəlxalq humanitar hüququn norma və prinsiplərini pozaraq Azərbaycanda dinc əhaliyə qarşı terror aktları həyata keçirib və belə terror aktları pislənməlidir.

❖ ❖ ❖




Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Prezident İlham Əliyevin Fərmanı ilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarəetmənin yaradılacağı barədə məlumat yayıb. Məlumatda Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) istinadla xəbər verilir ki, işğaldan azad edilən hər bir rayonda müvəqqəti xüsusi idarəetməni həyata keçirəcək komendantlıq yaradılacaq və ona rəhbərlik edəcək komendant Daxili İşlər Nazirliyi tərəfindən təyin olunacaq.

Bununla yanaşı, komendantın öz fəaliyyətini Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə əlaqələndirəcəyinin sənəddə öz əksini tapdığı da qeyd edilir.

Məlumatda fərmandan gətirilən sitatda deyilir: "Müvəqqəti komendantlıqlar mühüm əhəmiyyətli obyektlərin, o cümlədən nəqliyyat və telekommunikasiya infrastrukturu obyektlərinin, enerji və su təchizatı sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsini təşkil etsinlər".

Bu komendantlıqların, həmçinin aşkar edilən hərbi texnikanın, silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin toplanması, inventarlaşdırılması və mühafizəsini, eyni zamanda ictimai qaydanı və təhlükəsizliyi təmin edəcəyi də bildirilir.

Fərmandan gətirilən növbəti sitatda qeyd edilir: "Müvəqqəti komendantlıqlar aidiyyəti dövlət orqanları ilə birlikdə minalardan təmizləmə və zərərsizləşdirmə işlərinin aparılması, terrorçuluq, casusluq, təxribat və Azərbaycan Respublikasına qarşı yönəldilmiş digər qanunazidd fəaliyyətin qarşısının alınması, ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi üçün zəruri tədbirlər görsünlər".

Məqalədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və səbəbləri barədə də ətraflı məlumat verilir.

Qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddialarına 1988-ci ildə başlanıb. 1992-ci ildə iki keçmiş sovet respublikası arasında müharibəyə çevrilən münaqişə xarici havadarlarına arxalanan Ermənistanın qələbəsi ilə yekunlaşıb. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs elan olunsa da, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Dağlıq Qarabağda yaşayan separatçı ermənilər müstəqil respublika elan etsələr də, bu qondarma "dövlət" heç bir beynəlxalq qurum və dövlət tərəfindən tanınmayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etsə də, Ermənistan hökuməti bu sənədləri icra etməyib.

Cari il sentyabrın 27-də Ermənistan ordusunun növbəti təxribatının qarşısını alan Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçərək işğal altında olan torpaqları azad etməyə başlayıb.

❖ ❖ ❖




Özbəkistanın tnews.uz portalı Azərbaycanın Özbəkistandakı səfirliyinin Bərdə hadisələri ilə bağlı mətbuat üçün məlumatını yayıb. AZƏRTAC xəbər verir ki, məlumatda oktyabrın 27-də və 28-də Ermənistanın humanitar atəşkəs rejimini pozaraq "Smerç" bombalarından Bərdə, Goranboy və digər əraziləri atəşə tutduğu bildirilir. Oktyabrın 27-də Bərdə rayonu ərazisində 5 dinc sakin həlak olub, 14 nəfər yaralanıb. Həmin gün "Euronews" televiziya kanalının çəkiliş qrupu da "Kornet" sistemindən atəşə tutulub.

Qeyd olunur ki, oktyabrın 28-də qədim Bərdə şəhərinin mərkəzi "Smerç" qurğularından raket atəşinə tutulub, nəticədə 21 dinc sakin həlak olub, 70-dən çox insan yaralanıb. Vurğulanır ki, silahlı münaqişələr zamanı mülki əhalini və obyektləri nişan almaq hərbi cinayətdir və 1949-cu ildə imzalanan Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır.

Deyilir ki, Ermənistanın Azərbaycanın mülki obyektlərini və dinc əhalisini raket atəşinə tutması ilə bağlı Avropa məhkəməsinə müraciət edilib. Vurğulanır ki, erməni təcavüzkarlarının əli ilə günahsız insanların həlak olmasına, erməni vandallarının cinayətlərinə dünya birliyi daha nə qədər susacaq?

Dünya ictimaiyyəti Azərbaycan ərazisindəki təcavüzkar qüvvələrə siyasi, maliyyə dəstəyi göstərən ayrı-ayrı dövlətlərə müvafiq təsir göstərməyə çağırılır.

Qeyd etmək istəyirik ki, Azərbaycan öz növbəsində bütün cəbhəboyu humanitar atəşkəs rejiminə əməl edir. Ermənistan rəhbərliyi, ən nəhayət, başa düşməli və qəbul etməlidir ki, Azərbaycanın dövlət sərhədləri dünya birliyi tərəfindən tanınıb və Azərbaycan öz ərazisinə hücum edən hər hansı hərbi obyekti məhv etmək hüququna malikdir.

❖ ❖ ❖




Almaniyanın ictimai televiziya kanalı olan "ARD"nin "Tagesschau" verilişində Azərbaycana səfər etmiş jurnalist Oliver Mayer-Rütün Tərtərdən hazırladığı "Dağlıq Qarabağda müharibə" mövzusunda reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, reportajda Ermənistan-Azərbaycan münaqişəsinin tarixinə nəzər salınır. Bildirilir ki, hazırda hərbi əməliyyatların aparıldığı Qarabağ Azərbaycanın tərkib hissəsi olub və Ermənistan tərəfindən işğal edilib. Beynəlxalq hüquq tərəfindən Azərbaycanın ərazisi kimi tanınan bölgədə 4 həftədir ki, şiddətli döyüşlər gedir.

Reportajda, həmçinin Tərtər sakinləri Xalid Hümbətovun və Hicran Əmrahovanın müsahibələri də yer alıb. Eyni zamanda Ermənistanın raket hücumları nəticəsində Tərtərdə dağılmış evlər və mülki infrastruktur obyektləri nümayiş etdirilib.

❖ ❖ ❖




Misirin "Alwasela" qəzeti, "Almasryalyoum", "Garbnews" və "Aldiplomasy" portalları və "Asiaelyoum" İnformasiya Agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsindən əsas məqamları yayıblar. AZƏRTAC-a istinadla yayılan xəbərlər "Azərbaycan Prezidenti: Qarabağ bizim üçün ədalət, qürur və beynəlxalq hüquq məsələsidir" sərlövhəsi ilə yerləşdirilib. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı alman müxbirin Qarabağın nəyə görə xalqımız üçün önəmli olduğu sualına cavabında deyib: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Xəbərlərdə dövlətimizin başçısının bəzi beynəlxalq təşkilatların Ermənistanın işğalçılıq, etnik təmizləmə siyasətinə qarşı ikili standartlar mövqeyindən çıxış etməsi, Gəncə, Bərdə və Tərtərdə mülki insanların qətlə yetirilməsi barədə fikirləri də yer alıb.

❖ ❖ ❖




Bu gün Fransada söz, mətbuat azadlığı gündəmdədir. Hamı mətbuat azadlığından danışır. Belə bir vaxtda Dağlıq Qarabağdan yazan jurnalistlərin, eləcə də bu münaqişədən danışan deputatların təhqir olunması və ölümlə hədələnməsi qəbuledilməzdir. Xüsusilə də ölüm hədələri ASALA kimi terror təşkilatının adından edilir. Bu, söz və mətbuat azadlığına böyük zərbədir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində fransız jurnalist, KERNEWS radiosunun təsisçisi və "Bourse Plus" qəzetinin müxbiri Yannik Üryen söyləyib.

Ermənistana səfər etmiş bir qrup fransız deputatla bağlı fikirlərini bölüşən Y.Üryen deyib: "Çox təəssüflər olsun ki, bu gün Fransa çox zəifdir. Artıq uzun illərdir ki, Fransa gücünü itirib. Bu gün fransız deputatlar sirkdəki klounlar kimidir, səs-küy salıb diqqəti cəlb edirlər. Ancaq bu, səs-küydən başqa bir şey deyil. Müəyyən sayda seçici səsi üçün hər şeyə hazır olan bu deputatlar heç nə əldə edə bilməyəcəklər. Həmin deputatlar Fransanın maraqlarından daha çox, öz maraqlarını düşünürlər. Bu isə onlara xeyir gətirməyəcək. Onlar səs-küy saldıqları vaxt Azərbaycan öz torpaqlarını azad edəcək və qazanan Azərbaycan tərəfi olacaq".

Fransada icra hakimiyyəti üzvlərinin çox zəif olduğunu deyən jurnalist bildirib ki, onların əksəriyyəti müəyyən hakim dairələrdə özlərinə yer etmiş erməni lobbisinin marionetinə çevrilib.

Y.Üryen qeyd edib ki, son günlər erməni lobbisi öz mənfur hərəkətləri ilə iç üzünü açıb göstərdi. "Fransa Dağlıq Qarabağ münaqişəsinin həlli həvalə olunan Minsk qrupunun həmsədridir. Həmsədr isə bitərəf olmalı, məsələni dərindən öyrənib, ədalətli həll təklif etməlidir. Ancaq bu gün Fransa əllərini yanına sallayaraq gözləyir", - deyə jurnalist vurğulayıb.

❖ ❖ ❖




"Der Freitag" qəzetində alman şərqşünas Mixael Raynhard Hesin müsahibəsi çap olunub.

Müsahibədə bildirilir ki, Dağlıq Qarabağda Ermənistan və Azərbaycan arasında bir aydır döyüşlər gedir. Münaqişənin uzun tarixçəsi mövcuddur və bölgə uğrunda dəfələrlə hərbi əməliyyatlar baş verib. 30 il bundan öncə Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunub və təxminən 1 milyon azərbaycanlı öz yurd-yuvalarından didərgin salınıb. BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr işğal olunmuş ərazilərin dərhal Azərbaycana qaytarılmasını tələb edir.

Məqalədə həmçinin Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə bağlı fikirlər bölüşülür, münaqişənin təhlilində Almaniyada qeyri-neytral jurnalistika probleminə toxunulur, eləcə də Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinin, Azərbaycan torpaqlarının işğal edilməsinin və təxminən 1 milyon insanın məcburi köçkün düşməsinin alman mətbuatında lazımınca işıqlandırılmamasının səbəbləri izah olunur.

❖ ❖ ❖




İspaniyanın böyük oxucu kütləsinə malik "Diplomat in Spain" və "Style International" internet portallarında Ermənistanın Bərdəyə raket hücumları barədə məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalələrdə Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində dinc insanlara qarşı törədilmiş müharibə cinayəti ilə əlaqədar oktyabrın 29-da Azərbaycanın İspaniyadakı Səfirliyinin inzibati binasının qarşısında xatirə guşəsi yaradıldığı diqqətə çatdırılıb.

Bildirilib ki, guşədə Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə mülki şəxslərin məqsədli şəkildə hədəfə alınması nəticəsində həlak olanların fotoları, ermənilərin törətdikləri növbəti müharibə cinayətlərinin fəsadlarına dair müxtəlif materiallar, infoqram və məlumatlar nümayiş etdirilib.

Qeyd olunub ki, İspaniyada yaşayan azərbaycanlıların, eləcə də yerli ictimaiyyətin nümayəndələri səfirliyin binası qarşısına gələrək guşənin önünə gül dəstələri və şamlar düzüb, Ermənistanın hərbi təcavüzü nəticəsində həyatını itirmiş mülki şəxslərin xatirəsinə dərin ehtiramlarını ifadə edərək, bu təcavüz aktından təsirləndiklərini, böyük kədər hissi keçirdiklərini bildiriblər. Bu cür cinayətlər insanlıq əleyhinə nifrət hissinin təzahürü kimi qiymətləndirilib.

Məqalələrdə oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərini "Smerç" yaylım atəşli reaktiv sistemdən raket atəşinə tutması nəticəsində uşaqlar da daxil olmaqla, 21 mülki şəxsin həlak olduğu, 70-dən çox insanın ağır yaralandığı diqqətə çatdırılır.

Xüsusi olaraq vurğulanır ki, Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində dinc əhalinin məqsədyönlü şəkildə qətlə yetirilməsi qətliam və müharibə cinayətidir. Bu, Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Bu cinayətə görə ölkənin baş naziri və müdafiə naziri də daxil olmaqla, Ermənistan rəhbərliyi tam şəkildə məsuliyyət daşıyır.

❖ ❖ ❖




Kolumbiyanın çoxmilyonlu izləyici auditoriyasına malik "Ultima Hora" internet televiziyasında Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbovun Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın törətdiyi müharibə cinayətləri barədə müsahibəsi efirə gedib.

AZƏRTAC xəbər verir ki, müsahibədə səfir Ermənistanın Azərbaycana qarşı 28 ildir davam edən hərbi təcavüzü, beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizini, o cümlədən Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal etməsi, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələr, Minsk qrupu çərçivəsində aparılan danışıqlar və Ermənistanın davamlı olaraq qeyri-konstruktiv yanaşması nəticəsində bu prosesin pozulması barədə məlumat verib.

Bildirib ki, Ermənistanın bu günədək BMT-nin qətnamələrinə məhəl qoymaması ilə yanaşı, işğalçı dövlətin milliyyətçi hökumətinin son iki il ərzində sərgilədiyi daha təcavüzkar hərbi-siyasi doktrina, N.Paşinyanın "Qarabağ Azərbaycandır və nöqtə" kimi açıqlamaları, iyulda dövlət sərhədinin Tovuz rayonu bölgəsində törədilmiş təxribat, bu qəbildən digər təxribatçı bəyanat və addımların davamı olaraq Ermənistanın sentyabrın 27-dən etibarən ölkəmizə qarşı növbəti təcavüzə cəhd edib.

Son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin Tərtər, Ağdam, Ağcabədi, Goranboy, Mingəçevir, Gəncə, Bərdə və digər şəhər və rayonlarımızın sıx məskunlaşmış ərazilərinə artilleriya və qadağan olunmuş döyüş başlıqları daşıyan ballistik raket zərbələri endirməsi nəticəsində 70-dən çox mülki vətəndaşımızın həlak olması, 300-dən çoxunun isə yaralanması barədə məlumat verən diplomat ayrı-ayrı vaxtlarda üç dəfə elan edilmiş humanitar atəşkəsi pozmaqla törədilən bu hücumların müharibə və insanlıq əleyhinə cinayətlər olduğunu, Ermənistanın dövlət səviyyəsində terror siyasəti yürütdüyünün sübuta yetirdiyini bildirib.

Ermənistanın münaqişəyə üçüncü tərəfləri cəlb etmək məqsədilə davamlı qaydada saxta xəbərlər yaydığını, hətta münaqişəni dini zəmində təqdim etməyə çalışdığını deyən səfir işğalçı dövlətin eyni məqsədlə münaqişə bölgəsindən aralıda yerləşən şəhərlərimizdən keçən və regionun inkişafında və Avropanın enerji təhlükəsizliyində vacib önəm daşıyan iri miqyaslı enerji və infrastruktur layihələrimizə də zərbələr endirməklə hədələdiyini vurğulayıb.

Azərbaycan Ordusunun hazırda mülki əhalinin təhlükəsizliyini təmin etmək, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq və işğal altındakı əraziləri azad etmək məqsədilə əks-hücum tədbirləri gördüyünü deyən M.Əhmədzadə ölkəmizin hər zaman danışıqlara hazır olduğunu, lakin N.Paşinyanın "münaqişənin diplomatik həlli yoxdur" deyə bəyanat verməsi və dünyanın müxtəlif ölkələrində yaşayan erməniləri total müharibəyə səsləməsinin qarşı tərəfin dialoq tərəfdarı olmadığını göstərdiyini bildirib.

Sonda regionda davamlı sülhə başlıca təhdidin Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində qalması olduğunu deyən təmsilçimiz, Ermənistanın BMT qətnamələrinə məhəl qoymamasının, beynəlxalq hüququn ərazi bütövlüyü, suverenlik və beynəlxalq sərhədlərin toxunulmazlığı kimi fundamental prinsiplərinə hörmət etməməsinin bütün dünyada mənfi presedent yaranmasına səbəb ola biləcəyini söyləyib, bunun qarşısının alınması üçün beynəlxalq ictimaiyyətin işğalçı dövlətə təzyiq göstərməsi, ondan beynəlxalq hüquqdan irəli gələn öhdəliklərini yerinə yetirməsini tələb etməsinin lazım olduğunu diqqətə çatdırıb.

❖ ❖ ❖




Norveçin "Klassekampen" qəzetində Ermənistan-Azərbaycan münaqişəsi barədə məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, "Bir münaqişənin tarixi" adlı məqalədə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu qeyd edilir. Münaqişənin fəsadları barədə məlumatın verildiyi məqalədə azərbaycanlıların qətlə yetirildiyi və ya işğal olunmuş ərazilərdən qovulduğu diqqətə çatdırılır. Bildirilir ki, təkcə Xocalı şəhərində 1992-ci il fevralın 26-da erməni millətçiləri bir gecədə 613 nəfəri vəhşicəsinə qətlə yetiriblər.

Məqalədə vurğulanır ki, beynəlxalq hüquq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birmənalı mövqeyə malikdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilən 822, 853, 874 və 884 saylı dörd qətnaməsində deyilir ki, Ermənistanın bütün işğalçı qüvvələri Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini dərhal, tam və qeyd-şərtsiz tərk etməlidir.

Məqalədə bu il sentyabr ayının sonlarında Azərbaycan qoşunlarının əks-hücuma keçməyə məcbur olduğu qeyd edilir. Bildirilir ki, erməni tərəfi münaqişəyə digər ölkələri cəlb etməyə çalışır. Bu məqsədlə Ermənistan ballistik raketlərdən istifadə edərək, münaqişədən kənar zonada yerləşən dinc şəhərləri atəşə tutur.

❖ ❖ ❖




Oktyabrın 28-də işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərinə raket hücumu və üç humanitar atəşkəsə rəğmən müharibə cinayətlərini davam etdirməsi barədə xəbərlər ərəb KİV-ində geniş işıqlandırılıb. AZƏRTAC xəbər verir ki, "Aljazeera", "Skynews Arabia" və "Al Arabia" televiziya kanalları Bərdə şəhərində 21 mülki insanın, o cümlədən 1 uşağın həlak olması, 70 nəfərin yaralanması haqqında reportajlar yayıblar. Reportajlarda qeyd olunub ki, Azərbaycan Ordusunun yeni əraziləri işğaldan azad etməsi fonunda Ermənistan mülki obyektləri və dinc əhalini hədəfə alır. Ermənistanın qadağan olunmuş kasetli bombalardan istifadə etdiyi də diqqətə çatdırılıb.

"Almasryalyoum" informasiya portalı isə AZƏRTAC-ın xəbərlərinə istinadla Bərdə şəhərində mülki insanların qətlə yetirilməsi və yaralanması haqqında geniş xəbər yayıb. Xəbərdə Azərbaycan Respublikası Baş Prokurorluğunun insan tələfatı və mülki obyektlərə vurulmuş zərərlə əlaqədar bəyanatı yer alıb.

Nüfuzlu "Əl-Əhram" qəzeti də Ermənistanın Bərdəyə raket hücumu haqqında geniş məqalə dərc edib. Məqalədə qeyd olunur ki, dinc əhalinin və mülki obyektlərin hədəfə alınması yolverilməzdir və bu addım münaqişənin daha da dərinləşməsinə səbəb olacaq.

❖ ❖ ❖




Bəhreyn Krallığının ingilis dilində nəşr olunan "The Daily Tribune" qəzetində Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin "Ermənistanın Azərbaycanın günahsız mülki insanlarına qarşı terror aktları" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra başlayan döyüşlərdə məğlub olan işğalçı ölkənin silahlı qüvvələrinin Azərbaycanın şəhər və kəndlərində dinc əhalini hədəf alması, üç dəfə əldə olunmuş humanitar atəşkəsi pozaraq Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələrini ballistik raketlər və qadağan edilmiş kasetli bombalarla atəşə tutması, uşaq və qadınlar da daxil olmaqla, 90-dan çox günahsız insanı qətlə yetirməsi barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Bərdə şəhərində mülki şəxslərin qətli soyqırımı aktı və müharibə cinayətidir.

Müəllif vurğulayıb ki, beynəlxalq ictimaiyyətin Ermənistanın bu əməllərinə biganə qalması gələcək cinayətlər üçün zəmin yaradır. Səfir beynəlxalq təşkilatları və bütün dövlətləri işğalçı ölkənin bu vəhşiliklərinə lazımi qiymət verməyə çağırıb.